TEXNİKİ TAPŞIRIQ

***Tapşırığı yerinə yetirmək üçün tədbirlər, əsas metodologiya/üsullar və gözlənilən nəticələr***

---

***MÜNDƏRİCAT***


**I. Texniki yanaşma və metodologiya**

***1. Giriş***

***1.1. Hazırkı kurikulum islahatı***

***1.2 .Tapşırığın vəzifələri haqqında təsəvvürümüz***

***2. Ümumi yanaşma***

***3. Tapşırığı yerinə yetirmək üçün tədbirlər, əsas metodologiya/üsullar və gözlənilən nəticələr.***

**II. İş planı**

**III. Təşkilatı tədbirlər və kadr təminatı**

**Texniki yanaşma və metodologiya**

***1.Giriş:*** Bu tapşırığın məqsədi Azərbaycanda 1999-cu ildən etibarən başladılan Təhsil İslahatı Proqramı və Təhsil Nazirliyinin hazırladığı Milli Kurikulum çərçivəsində "Ümumi orta təhsil səviyyəsində fənn kurikulumlarının tətbiqi" mövzusunda Azərbaycanın **Lənkəran** iqdisadi rayonlarında Riyaziyyat müəllimlərinin maarifləndirilməsi və ixtisasartırma təhsilinin müasir tələblər səviyyəsində qurulmasını təmin etmək və eyni zamanda, onların peşə hazırlığı üçün təlim kursunun layihəsini tərtib etməkdir.

***1.1.*** Azərbaycanda 1999-cu ildən etibarən başladılan Təhsil İslahat Proqramının və Strategiyasının əsas məqsədi bütün təhsil sahəsinə xas olan bir çox məsələni həll etmək, təhsilin keyfiyyətini yüksəltmək, təhsil sahəsinin fəaliyyətini bazar iqtisadiyyatının və ölkənin gələcək ictimai inkişafının ehtiyaclarına uyğunlaşdırmaqdır.

Ölkəmizdə gedən bu təhsil islahatı təhsil sektorunun bütün sahələrində səriştəli, yuksək peşəkarlığa malik pedaqoji kadrların yetişdirilməsi məsələsini ortaya çıxarır. Xəzər Universitetində 2003-cü ildən etibarən fəaliyyət göstərən Təhsil fakültəsi Avropa və Amerika təhsil standartlarında qurulmuş bir fakültə kimi peşəkar müəllim hazırlığını müasir tələblər səviyyəsində həyata keçirir. Belə ki, hazırda altı müxtəlif ixtisas sahəsində pedaqoji kadr hazırlığı aparan fakültənin tədris planında tələbələrin ixtisas sahələrində dərin bilik və bacarıqlara yiyələnmələri ilə yanaşı, onların pedoqoji peşə üzrə hazırığı da xüsusi diqqət mərkəzində saxlanılır. Gələcəyin müəllimlərinin Azərbaycandakı təhsil islahatının tələblərinə cavab verə biləcək peşəkar kadr olmaları üçün onların pedoqoji peşə hazırlığı xüsusi, bir-birini tamamlayan fənlər blokundan ibarətdir. Bu fənlər bloku bir çox ali məktəblərimizdə yeni tədris olunmağa və önəmi qavranılmağa başlanan "Təhsilə giriş" kursu ilə başlanır və "Təhsil psixologiyası", "Kurikulum, qiymətləndirmə və dəyərləndirmə strategiyaları", "Müasir təlim metodları", "Sinifin idarə olunması" və s. kimi kurslarla davam etdirilir.

Xəzər Universitetinin təhsil sistemi, eyni zamanda, gələcəyin müəllimlərində rahat və təsirli ünsiyyət qurma bacarığının formalaşdırılmasına, yeniliklərə açıq olma və innovasyalar tətbiq edə bilmə, müstəqil, yaradıcı fəaliyyət göstərmə, şagirdlərə qarşı dözümlü, açıq və tərəfsiz münasibət nümayiş etdirmə və sinfin idarə olunması və dəyərləndirmə kimi bacarıqlarının formalaşdırmasına xidmət edir. Tələbələr təhsil illəri ərzində qazandıqları bilik və bacarıqları universitetin "Dünya" məktəbində təcrübədən keçirirlər.

***1.2.*** Təlim və tədris prosesinin, əsasən, sinif otağında həyata keçirildiyi üçün yeni kurikulumun məktəbdə uğurla tətbiqi fənn müəllimlərinin bilavasitə peşəkarlığından asılı olur. Məlumdur ki, öyrənənin öyrənmə fəaliyyətinin gerçəkləşməsində öyrədənin böyük rolu vardır. Peşəkar müəllim

yeni kurikulumun ondan tələb etdiyi öhdəlikləri dərindən mənimsəməli, müəllimin bələdçilik funksiyasını qavramalıdır. Belə ki, təlim və tədris prosesində əlaqələndirici, məsləhətverici və təşkiledici rolunda çıxış edən müəllim, şagirdə tədqiqatçılıq ruhu aşılamalı, onun tədqiqatçı, yaradıcı və rəhbər rolunu mənimsəməli və mənimsətməlidir. Peşəkar müəllim qiymətləndirmənin sadəcə gündəlik qiymət yazmaqdan ibarət olmadığını, onun həm də ölçmə, dəyərləndirmə kimi müxtəlif meyarlardan ibarət olduğunu bilməlidir. O, müasir təhsil sistemində baş verən innovasiyaları bilməli, yaradıcı dərs qurmağı bacarmalı, şagirdləri istiqamətləndirməli və onların öyrənməsinə kömək etmək üçün lazım olan peşəkarlığa sahib olmalıdır.

Müasir fənn kurikulumları müəllimdən yüksək ixtisas dərəcəsi ilə yanaşı, əmək fəaliyyəti boyunca fasiləsiz peşə hazırlığı da tələb edir. Müəllimlər bilik və bacarıqlarını artırmaq, peşəkarlıq səviyyələrini yüksəltmək üçün daima fəal olmalı, ölkə daxilində və beynəlxalq aləmdəki innovasiyaları öyrənməli və müntəzəm olaraq təkmilləşməlidirlər. Əlbəttə ki, ixtisasartırma təhsili çoxistiqamətli əməkdaşlıq tələb edən bir proses olduğu üçün burada işə götürən tərəfin və eləcə də, cəmiyyətin də maraqları daxilində olmalıdır. İxtisasartırma kursularında müəllimlərə sadəcə nəzəri biliklərin verilməsi ilə kifayətlənməməli, eyni zamanda, bu nəzəriyyələrin necə tətbiq ediləcəyi, ardıcıl peşə hazırlığının davamlılığının əhəmiyyəti və məktəb daxili və ya məktəblər arası təcrübə mübadiləsinin mexanizmi də öyrədilməlidir.

## 2. *Ümumi yanaşma*

Qloballaşan dünyada insan inkişafının qiymətləndirilməsində təhsil göstəriciləri xüsusi əhəmiyyət daşıyır. Azərbaycanda humanist prinsiplərə söykənən inteqrativ xarakterli yeni təhsil sisteminin yaradılması tələbatı kurikulum islahatının aparılması zərurətini doğurdu. Dünyanın təhsil arenasında kurikulum modeli geniş istifadə edilməkdədir. Azərbaycan üçün onun özünəməxsus izahı və şərhi vardır. Kurikulum milli-mənəvi dəyərlərə yiyələnmiş şəxsiyyətin müasir həyata hazırlanmasına xidmət edir, nəticəyönümlü və inkişafetdirici xarakter daşıyır. Kurikulum bilavasitə, davamlı inkişafa və biliklərin tətbiqinə yönəlmişdir. Yeni kurikulum nəzəriyyəsini və təcrübəsini tam tətbiq etmək və onun tətbiqini asanlaşdırmaq üçün bir dəstə uzlaşdırılan və ardıcıl təlimatlara ehtiyac olduğu bilinən bir həqiqətdir. Belə ki, tədqiqatlara görə, məktəb direktorları, metodistlər, eyni zamanda, müəllimlər yeni kurikulum islahatının səmərəli həyata keçirilməsi ilə əlaqədar məlumatlandırma və ya ixtisasartırma tədbirlərinin müxtəlif növlərində iştirak etmişlərsə də, məktəblərin bu təcrübələri ardıcıl şəkildə mübadilə etmələri üçün məktəbdaxili mübadilə sistemi yaradılmamış, müəllimlər və ya təhsil rəhbərləri bu kurslarda əldə etdikləri bilikləri istənilən səviyyədə həyata keçirə və peşəkarlıq səviyyələrini istənilən səviyyəyə yüksəldə bilməmişdilər.

İstənilən kurikulumun tətbiq sahəsi məktəb və sinif otağı olduğu üçün kurikulumun uğuruna təsir edən əsas amillərdən biri də məhz təlim və tədrisi həyata keçirən müəllimdir. Yeni fənn kurikulumu ilə işləyən müəllim standartlarla işləməyi bilməli, standartı mövzuya tətbiq edə bilməli, təlim nəticəsini əldə etmək və qoyulan məqsədə çatmaq üçün hansı təlim texnologiyalarından və qiymətləndirmə meyarlarını istifadə edəcəyini müəyyənləşdirə bilməlidir. Gözlənilən təlim nəticələrinin əldə edilməsində öyrədənin peşəkarlığı ilə yanaşı planlaşdırmanın düzgün aparılması da kurikulumun uğuruna təsir edən önəmli amillərdəndir. Buna görə də, pedaqoji təhsil və ixtisasartırma tədbirləri son dərəcə vacibdir. Hələ Azərbaycanda fəaliyyət göstərən müəllimlər ordusunun böyük bir hissəsi ənənəvi təhsil sisteminin yetirməsi olaraq, müasir yanaşmalara, məzmun xətti və standart anlayışı, yeni təlim texnologiyaları və qiymətləndirmə strategiyaları, planlaşdırma və s. kimi müasir təlim və tədrisin təşkilində mühim rol oynayan komponentlərdən istiadə etmək vərdişinə yiyələnmədiklərini nəzərə alsaq, onda ardıcıl peşə hazırlığı və ixtisasartirmanın əhəmiyyəti daha da artır.

Layihənin nəzəri çərçivəsi  və təlim materialları hazırlanarkən xüsusilə diqqət yetiriləcək ən mühim cəhətlərdən biri təlim proqramının mümkün qədər yüksək səviyyədə tətbiqi və mənimsənilməsi və ən önəmlisi müəllimlərin ardıcıl peşə hazırlığının məktəb miqyasında, təcrübə mübadiləsi yolu ilə davam etdirilə bilməsi üçün bu kursun onlara yardımcı olmasını təmin etməkdir. Təlim kursunun nəzəriyyələrdən ibarət təlim materalları əsasında deyil, praktiki materiallar əsasında qurulması proqramın rahat və tez bir zamanda mənimsənilməsini təmin edəcəkdir. İştirakçıların təlim materiallarını daha yaxşı qavraması və  kurs əsnasında verilən qrup çalışmalarının daha effektiv hazırlanması üçün lazım olan gündəlik təlim materiallarının çapı və dərsdən əvvəl paylanması nəzərdə tutulur.

Təlim proqramının və materiallarının sadədən mürəkkəbə, asandan çətinə və konkretdən mücərrədə doğru izahı təlimdə yüksək keyfiyyət əldə etməyə imkan yaradacaqdır. Yeni təlim texnologiyalarının təlim kursu əsnasında tətbiqinə xüsusi diqqət yetiriləcək, təlimçinin istiqamətverici, təşkiledici və məsləhətverici, iştirakçıların isə fəal və tədqiqatçı olmasına çalışılacaqdır.

10 gün ərzində nəzərdə tutulan təlim kurslarında hər modulun sonunda həm təlimçinin, həm də dinləyicilərin günlük fəaliyyətini dəyərləndirici mahiyyətdə müzakirələrin təşkil edilməsi təlimin səmərəliliyini təmin edəcək bir başqa amildir. Eyni zamanda, hər günün sonunda həyata keçiriləcək ***gözləmələrlə (anket sorğu)*** təlimin keyfiyyəti, təlim materiallarının mənimsənmə faizi və iştirakçıların sual və təklifləri haqqında gündəlik məlumat əldə ediləcək, dərslər içtirakçılardan gələn tələb və təkliflər istiqamətində yönləndiriləcəkdir.

Layihənin yay aylarına təsadüf etməsi və təlim kursunun gündəlik 6 saat olmasını nəzərə alaraq, çay fasilələri də planlaşdırılır.

Layihənin səmərəliliyini və davamlılığını təmin etmək üçün Xəzər Univesiteti Təhsil fakültəsi və "Dünya" məktəbinin təcrübələrindən və resurslarından da istifadə olunacaqdır. Digər vacib bir prinsip təlimin bütün mərhələlərində universitetin heyəti ilə əməkdaşlığın və təlimdən sonra davamlılığın təmin olunmasını təşkil etməkdir.

Layihənin uğuruna təsir edəcək bir başqa element fənn müəllimlərinin təlim kurikulumunu və isitfadə ediləcək təlim materiallarının hazırlanmasında Kurikulum Mərkəzinin ekspertizasından istifadə olunması və mütəxəssislərin rəylərinə müraciət edilməsi və təlimçilər üçün universitetdə təşkil olunacaq ciddi və peşəkar təlim kurslarıdır. Layihənin uğurlu ola bilməsi üçün dinləyici auditoriyasının öncədən öyrənilməsi ilə yanaşı təlimçilərin praktiki və nəzəri təcrübəsinə də xüsusi diqqət yetirilməsi təlimçilərlə dinləyicilər arasındakı münasibətlərin öyrənilməsində və layihə zamanı qarşılaşıla biləcək çətinliklərin əvvəlcədən ortaya çıxarılmasına və onların operativ həllinə kömək edəcəkdir.

**Gözlənilən Nəticələr:**

Ümumi təhsil müəssisələrinin fənn müəllimləri üçün təşkil ediləcək "Ümumi orta təhsil səviyyəsində fənn kurikulumlarının tətbiqi" mövzusunda ixtisasartırma təlim kursundan gözlənilən nəticələr layihənin girişində qoyduğumuz məqsəd və hədəflərlə uyğunluq təşkil edir. Belə ki, təlim kursu sonunda fənn müəllimlərinin aşağıda göstərilən nəticələri əldə etmələri gözlənilir:

- kurikulum islahatının Azərbaycanda gedən təhsil islahatının əsas komponenti olduğunu mənimsəməli;
- Milli Kurikulumun səciyyəvi xüsusiyyətlərini şərh edə bilməli;
- yeni fənn kurikulumlarının struktur, məzmun və məqsəd baxımından ənənəvi təlim proqramlarından fərqini və eyni zamanda, fəal (interaktiv) təlimin ənənəvi dərsin quruluşundan fərqini izah edə bilməli;
- müəllimin bələdçilik mövqeyini və istiqamətverici, məsləhtverici rolunu mənimsəməli;
- illik və cari planlaşdırmanın prinsiplərini və əhəmiyyətini mənimsəməli;
- fənn kurikulumlarının srtuktur və məzmununu mənimsəməli;
- yeni fənn kurikulumuna əsasən fənlərin təlimindəki məqsəd və vəzifələri aydın mənimsəməli,;
- dərsi şagirdlər üçün qoyulan hədəf nailiyyətlərin əldə olunması (taksonomiya) istiqamətində qura bilməli;
- hədəf nailiyyətlərin əldə edilməsi üçün dərs materiallarının şagirdlərə sadədən mürəkkəbə, asandan çətinə və konkretdən mücərrədə doğru, ön şərtli olaraq, mərtəbəli şəkildə izahının mənimsədilməsi;
- dərsin təşkilində şagiridin rolunun və fəallığının, motivasiyasının birbaşa öyrənməyə təsir etdiyini mənimsəmə və fəal dərsi təşkil edə bilmə bacarığını formalaşdırılması;

- fəal dərsi təhlil və təsnif edə bilmə səriştəsinin qazanılması, fəal dərs üçün düşünməyə yönəlik tapşırıqların hazırlanmasında səriştəlilik qazanması.

### 3. Tapşırığı yerinə yetirmək üçün tədbirlər, əsas metodologiya/üsullar və gözlənilən nəticələr

### 3.1. Tapşırığı yerinə yetirmək üçün tədbirlər

"Ümumi orta təhsil səviyyəsində fənn kurikulumlarının tətbiqi" mövzusunda fənn müəllimləri üçün təlimlərin keçirilməsi layihəsində aşagıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

**I) HAZIRLIQ**

- Layihə heyətinin tam tərkibdə görüşü və layihənin fəaliyyətinin planlaşdırılması;
- Planlaşdırılmış təlimlər üçün zəruri hazırlıq və inzibati işlərin görülməsi;
- Təlimatçılar üçün istqamətləndirmə və məsləhət görüşlərinin təşkili;
- İqtisadi regionlardan təhsil rəhbərlərinin siyahılarının alınması;
- Dinləyicilərin qruplara bölünməsi və uyğun təlimçilərin təyin olunması;
- Xəzər Universitetində layihə çərçivəsində treninqlərin təşkil olunması;
- Dinləyici qovluqlarının hazırlanması.

**II) İŞİN İCRASI**

- "Ümumi orta təhsil səviyyəsində fənn kurikulumlarının tətbiqi" mövzusunda fənn müəllimləri üçün təlimlərin keçirilməsi.

**III) MONİTORİNQ**

- Təlimin gedişatına nəzarətin təşkili üçün nəzarət mexanizminin tərtib edilməsi və həyata keçirilməsi.

**IV) HESABATLAR**

- İcra olunmuş tədbirlər haqqında yekun hesabatların hazırlanması və təqdimatı;
- İlkin hesabat;
- Kursun başa çatdırılması haqqında hesabat;
- Yekun hesabat;
- Maliyyə hesabatının hazırlanması və təqdimatı.

### 3.2. Əsas metodologiya/üsullar

**I) HAZIRLIQ**

- *Layihə heyətinin tam tərkibdə görüşü və layihənin fəaliyyətinin planlaşdırılması.* Layihə üzrə təyin olunmuş layihə meneceri, layihə koordinatorları, assistentləri, ekspertlər və texniki heyət bir araya gələrək, layihənin fəaliyyətini planlaşdırır. Nəticədə, layihənin tam fəaliyyət planı hazırlanır.
- *Planlaşdırılmış təlimlər üçün zəruri hazırlıq və inzibati işlərin görülməsi.* Bu mərhələdə təlim materiallarının təkmilləşdirilməsi, təlimlərdən gözlənilən nəticə və standartların müəyyənləşdirilməsi, lazım olacaq resusrların təyin olunması və təmin edilməsi nəzərdə tutulur.
- *Təlimçilər üçün istqamətləndirmə və məsləhət görüşlərinin təşkili.* İstiqamətləndirmə mərhələsinə seçilmiş təlimçilər dəvət olunur və seçilmiş iqtisadi region üzrə komandalara bölünürlər. Təlimçilər təlim kursları zamanı aşağıda qeyd olunan öhdəliklər barədə nəzəri və praktiki olaraq, təlimatlandırılırlar:

✓ Dinləyicilərin seçilmiş təlim materialları ilə təminatı;
✓ Dinləyicilərin ilkin test vasitəsilə qiymətləndirilməsi;
✓ Gündəlik fəaliyyətlərin qiymətləndirilməsi;
✓ Dinləyicilərin cari və yekun nailiyyətlərinin qiymətləndirilməsi;
✓ Təlimlə bağlı icbari günlük qeydlərin tutulması.

- *İqtisadi regionlardan fənn müəllimlərinin siyahılarının alınması.* Layihə koordinatorları yerlərdə rayon təhsil şöbələri ilə əlaqə saxlayaraq, fənn müəllimlərinin treninqə cəlb olunması mexanizmlərini tərtib edirlər.
- *Dinləyicilərin qruplara bölünməsi və uyğun təlimçilərin təyin olunması.* Seçilmiş iqtisadi rayonlarda beş qrupda paralel təlim aprmaq üçün hər qrupa bir nəfər təlimçi təyin olunur. Müxtəlif rayonlarda paralel iş üçün Lənkəran, Aran və Yuxarı Qarabağ iqtisadi rayonlarındakı təlimə 20 təlimçinin cəlb olunması nəzərdə tutulur. Beləliklə, seçilmiş rayondakı təlimlər yeddi həftə ərzində başa çatdırılmalıdır.
- *Dinləyici qovluqlarının hazırlanması.* Bütün iştirakçıları on günlük treninq zamanı lazım olacaq dəftərxana ləvazımatları, yaxa kartları və təlim materialları ilə təmin etmək üçün qovluqlar hazırlanacaq.

**II) İŞİN İCRASI**

- *"Ümumi orta təhsil səviyyəsində fənn kurikulumlarının tətbiqi" mövzusunda fənn müəllimləri üçün təlimlərin keçirilməsi.* Təlim müddəti on gün nəzərdə tutulur. Hər gün hərəsi altı saat olmaqla altmış saatlıq təlim müddətində hər qrupa bir təlimçı təyin olunacaq və bu təlimçilər seçilən iqtisadi rayonlarda əvəzetmə qaydası ilə fəaliyyət göstərəcəklər.

- Təlimçilər gündəlik aldıqları məlumatlar, müşahidələr əsasında təhlil xarakterli hesabatlar hazırlayacaqlar. Müştərək qiymətləndirmə prinsipinə riayət etmək məqsədi ilə bütün sorğu vərəqələri və qiymətləndirmə meyarları təlim iştirakçılarının müzakirəsinə təqdim olunacaq. Qiymətləndirmə vasitələri ballar və təlimatçının imzası ilə hər bir dinləyicinin portfelində yerləşdiriləcəkdir.
- Sonuncu təlim günündə iştirakçılar dərslərin yekun təqdimatını, eləcə də, materialın nəzəri hissəsinin mənimsənildiyini yoxlamaq məqsədilə test yoxlaması keçirəcəklər.
- İştirakçıların nailiyyətlərinin qiymətləndirilməsi 100 ballıq sistemlə aparılacaqdır. Onlardan

✓ *Məşğələlərdə iştiraka görə* –maksimum 20 bal

✓ *Gündəlik fəaliyyətə görə* –maksimum 40 bal

✓ *Yekun qiymətləndirmə* –maksimum 40 bal.

| **Fəaliyyət növü** | **Minimum ballar** | **Maksimum balalr** |
|---|---|---|
| Məşğələlərdə iştiraka görə | 10 | 20 |
| Gündəlik fəaliyyətə görə | 30 | 40 |
| Yekun qiymətləndirmə | 30 | 40 |
| Cəmi | 70 | 100 |

- Yekun qiymətləndirmə nəticəsində 85-100 arası bal toplamış dinləyicilərə “I DƏRƏCƏLİ SERTİFİKAT”, 70-84 arası bal toplamış dinləyicilərə “II DƏRƏCƏLİ SERTİFİKAT” veriləcəkdir.
- Təlimin gedişatına nəzarətin təşkili üçün nəzarət mexanizminin tərtib edilməsi və həyata keçirilməsi üçün Xəzər Universitetinin Keyfiyyətə Nəzarət Mərkəzinin resurslarından istifadə olunacaq və Daxili Monitorinq Qrupu layihə heyətindən kənar peşəkarlardan ibarət olacaq.
- Monitorinq prosesində $360^0$-li əks-əlaqə modelindən istifadə olunacaq. Monitorinq zamanı dinləyicilərlə müsahibə, müşahidə, gözləmələr, qiymətləndirmə vərəqələri və anonim sorğu vasitələrindən istifadə ediləcək.

## IV) HESABATLAR

Layihə çərçivəsində müxtəlifyönümlü hesabatlar hazırlanacaq: Texniki və maliyyəyönümlü bütün hesabatların sifarişçinin tələblərinə görə hazırlanması nəzərdə tutulur.

**Çətinliklər və Təhlükələr**

Layihənin icrası zamanı qarşılaşıla biləcək çətinliklər və təhlükələr aşağıdakı kimi qruplaşdırıla bilər:

✓ Təlimlərdə iştirakın təmini;

✓ Təlim materiallarının lazımi səviyyədə mənimsənilməməsi və təlim motivasiyasının zəifliyi;

- ✓ Yerlərdə uyğun maddi-texniki bazanın olmaması;
- ✓ Təlimçinin qrup tərəfindən qəbul olunmaması;
- ✓ Təlimçidən qaynaqlanan xoşagəlməz hallar.

**Təlimlərdə iştirakın təminatı.** Təlim vaxtları yay aylarına təsadüf etdiyi üçün kursda iştirak edə bilməyən fənn müəllimləri üçün layihə müddətində yeni qruplar təşkil olunması və ya yaxın bölgələrdəki kurslara cəlb olunmaları nəzərdə tutulur.

**Təlim materiallarının lazımi səviyyədə mənimsənilməməsi və təlim motivasiyanın zəifliyi.** Müşahidə, müsahibə, gözləmələr, qiymətləndirmə vərəqələri, cari qiymətləndirmə metodları ilə dinləyici nailiyyətləri daima izlənərək, proqramın mənimsənilməsi təhlil olunacaq. Fəal təlim metodlarından istifadə edilməsi onların təlimdə aktiv iştirakını təmin edəcək. Bundan başqa, təlim materiallarının mənimsənilməsində çətinlik çəkən dinləyicilərə sinifdənxaric əlavə vəsaitlərlə dəstək veriləcək. Sertifikat üçün kafi bal toplaya bilməyən dinləyicilərin azsaylı qruplarda əlavə təlimlərə cəlb olunması nəzərdə tutulur.

**Yerlərdə uyğun maddi-texniki bazanın olmaması.** Bölgələr üzrə təyin olunmuş layihə koordinatorları yerlərdə araşdırma apararaq, zəiflikləri təyin edir və hazırlıq mərhələsində onları aradan qaldırmaq üçün inzibati və texniki tədbirlər görür, lazım olan əlavə resursları və avadanlıqları təmin edir.

**Təlimçinin qrup tərəfindən qəbul olunmaması.** Qrupla təlimçi arasında yarana biləcək müxtəlif-yönümlü anlaşılmazlıqların aradan qaldırılması üçün dinləyici qrupları öncədən öyrənilir (təhsilləri, dünyagörüşləri, yaşları, yeniliklərə reaksiyaları və s.) və təlimçi auditoriyaya uyğun olaraq, təyin olunur. Təliminin əvvəlində təlimçinin təqdimatına xüsusi diqqət yetirəcəkdir.

**Təlimçidən qaynaqlanan xoşagəlməz hallar.** Təlimçidən qaynaqlanan xoşagəlməz halları aradan qaldırmaq üçün güclü nəzarət təmin olunacaq, koordinatorlar hər günün təhlilini aparıb baş ofisi dərhal xəbərdar edəcək və uyğun tədbirlər görüləcək.

## B. İŞ PLANI

### I) HAZIRLIQ

Hazırlıq mərhələsi 2012-ci ilin may ayında başlayır, iyun ayında təlim kursları başlayana qədər davam edir və mərhələlər aşağıdakılardır:

- ✓ Layihə heyətinin tam tərkibdə görüşü və layihənin fəaliyyətinin planlaşdırılması;
- ✓ Planlaşdırılmış təlimlər üçün zəruri hazırlıq və inzibati işlərin görülməsi;
- ✓ Təlimatçılar üçün istqamətləndirmə və məsləhət görüşlərinin təşkili;
- ✓ İqtisadi regionlardan təhsil rəhbərlərinin siyahılarının alınması;
- ✓ Dinləyicilərin qruplara bölünməsi və uyğun təlimçilərin təyin olunması;
- ✓ Dinləyici qovluqlarının hazırlanması.

**II) İŞİN İCRASI**

Bütün region üzrə təlimlərin 8 həftə ərzində tamamlanması nəzərdə tutulur. Təlimlərin 2012-ci ilin iyun-iyul aylarında 7 paralel qrupda 7 təlimçi ilə həyata keçirilməsi planlaşdırılır və işin icrasının əsas məzmunu "Ümumi orta təhsil səviyyəsində fənn kurikulumlarının tətbiqi" mövzusunda fənn müəllimləri üçün təlimlərin keçirilməsindən ibarətdir.

**III) MONİTORİNQ**

Layihə çərçivəsində daxili monitorinq ikipilləli aparılacaq: Hər günün axırında təlimçi tərəfindən aparılacaq günlük gözləmə-qiymətləndirmə vərəgələri ilə yanaşı təyin olunmuş kordinatorlar müntəzəm monitorinq keçirir, yazılı və şifahi hesabatlar verir. Bununla yanaşı, öncədən təyin olunmamış vaxtda (təlimçi və dinləyici üçün) monitorinq qrupu təlimlərə baş çəkir.

**IV) HESABATLAR**

- ✓ İlkin hesabat;
- ✓ İcra olunmuş tədbirlər haqqında yekun hesabatların hazırlanması və təqdimatı;
- ✓ Kursun başa çatdırılması haqqında hesabat;
- ✓ Yekun hesabat;
- ✓ Maliyyə hesabatının hazırlanması və təqdimatı.

**C.** Layihənin uğurla idarə olunması üçün layihənin tərkibi aşağıdakı kimi müəyyənləşdirilmişdir: **layihə meneceri, layihə koordinatoru, layihə assistenti, ekspert məsləhətçi, mühasib, monitorinq qrupu.**

**Layihə meneceri** layihənin idarəolunlmasını həyata keçirəcək, hesabatın son variantının hazırlanmasına məsuliyyət daşıyacaq, bütün işlərin vaxtında, layihənin vaxt cədvəlinə uyğun həyata keçirilməsinə nəzarət edəcək, hesabatı sifarişçiyə təqdim edəcək. Layihənin bütün peşəkar heyəti layihə menecerinə hesabat verməlidir.

**Layihə kordinatoru.** Layihə kordinatorunun vəzifələri aşağıdakılardan ibarətdir: Rayon Təhsil şöbələri və təılim mərkəzləri ilə əlaqə saxlamaq, dinləyicilərin siyahısını dəqiqləşdirmək, təlim kurslarının keçirilmə yerlərinin uyğunluğu yoxlamaq və əmin olmaq, təlimlərdə müşahidəçi kimi iştirak etmək və uyğunsuzluq hallarında baş qərargahla əlaqə saxlamaq.

**Layihə assistenti.** Layihə assistenti layihənin hazırlıq mərhələlərində texniki və inzibati işləri yerinə yetirəcəkdir.

**Ekspert məsləhətçi** layihənin bütün mərhələlərində layihənin proqramının və materiallarının uyğunluğuna nəzarət edəcək, layihə boyunca onun uğurla həyata keçməsi üçün məsləhətlər verəcək.

**Monitorinq qrupu** Xəzər Universitetinin Keyfiyyətə Təminat Mərkəzinin kadrlarından və universitetin keyfiyyət təminatı ekspertlərindən ibarət komandanın layihə çərçivəsində fəaliyyəti layihənin əvvəlindən sonuna kimi keyfiyyət təminatı işlərini yerinə yerirməkdən, keyfiyyətə nəzarət mexanizmlərinin işlənib hazırlanmasından ibarət olacaqdır.